*Yusif Yaqub oğlu ƏHMƏDOV*
*magistrant*
*Email: yusifa808@gmail.com,*

*Lalə Rasim qızı MƏCİDOVA*
*Baş müəllim*
*Azərbaycan Kooperasiya Universiteti*
*Email: m.lala19@mail.ru*

# KİÇİK BİZNESİN TƏŞKİL EDİLMƏSİNİN QANUNVERİCİLİK BAZASI VƏ HÜQUQİ ASPEKTLƏRİ

***Xülasə***

Məqalədə kiçik biznesin inkişafına şərait yaradan başlıca amillərdən biri olan qanunvericilik bazasının olması və hüquqi təminatı öyrənilir. Bundan başqa təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi, beynəlxalq əmək bölğüsündən səmərəli istifadə meyilləri, Azərbaycan iqtisadiyyatına xarici kapital cəlb edilməsi üçün əlverişli hüquqi şərait yaratmaq tələbi təhlil olunur.

***Açar sözlər: kiçik biznes, kiçik biznesin qanunvericilik bazası, kiçik biznesin hüquqi aspektləri, xarici investisiya, beynəlxalq əmək bölgüsü.***

***

Ulu öndər Heydər Əliyev Azərbaycanımızı gəzərkən, onun inkişafının əsasını qoyarkən, heç vaxt ekologiyanı, təbiəti yaddan çıxarmamışdır. Ona görə ki, Tanrı bizə əlçatmaz bir təbiət gözəlliyi bəxş etmişdir. Dünyanın ən böyük alimləri, ekoloqları ölkəmizdə olmuş, nadir təbiətimizin füsunkarlığından vəcdəyə gəlmişlər. Bütün dünya həm tarix, həm də gözəllik baxımından Azərbaycanımızı ən nümunəvi coğrafi ərazi hesab edir. Bu nöqteyi-nəzərdən Heydər Əliyev Azərbaycan təbiətinə xüsusi önəm vermiş, onun daim təbii və ilkin toxunulmazlığını qorumağın vacibliyini zəruri saymışdır.

Kiçik biznesin inkişafına təkan verən başlıca amillərdən biri də onun qanunvericilik bazasının olması və hüquqi təminatıdır.

Dünya iqtisadiyyatında köklü dəyişikliklər, beynəlxalq inteqrasiya meyillərinin güclənməsi, dünyada mövcud olan iqtisadi reallıqları əsaslı şəkildə dəyişdirmişdir. Bu prosesin ən mühüm elementlərindən biri, investisiya siyasətinin qloballaşmasıdır. Xarici investisiyalar, milli iqtisadiyyat üçün vacib ünsür olan beynəlxalq ticarəti üstələyərək, yaxın keçmişlə müqayisədə daha sürətlə artır. Bundan başqa, beynəlxalq iqtisadi mühitin dəyişməsi ilə, transmilli korporasiyaların siyasəti də dəyişir.

Təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi, beynəlxalq əmək bölgüsündən səmərəli istifadə meyilləri, Azərbaycan iqtisadiyyatına xarici kapital cəlb edilməsi üçün əlverişli hüquqi şərait yaratmağı tələb edir. Son illər ərzində Azərbaycanda əldə olunmuş siyasi sabitlik, sənaye cəhətdən inkişaf etmiş Azərbaycanın beynəlxalq özəl hüquqlarının mühüm və qeyri-ordinar mənbəyi ölkələrdən investisiya cəlb edilməsi üçün müəyyən şərait və imkan yaratmışdır, olan neft müqavilələrinin imzalanması (1994-cü ilin sentyabr ayında), xarici investisiyaların cəlb edilməsi üzrə böyük işin ilkin və əyani təzahürüdür. Bundan bir qədər sonra isə, 1997-ci il aprelin 22-25-də bir çox uzaq xarici ölkələrin nümayəndələrinin iştirakı ilə Bakıda keçirilmiş "Azərbaycanda investisiya imkanları" üzrə konfrans potensial investorların respublikamıza olan marağını bir daha nümayiş etdirdi. Digər problemlərlə birlikdə, xaricilərin diqqət mərkəzində olan əsas məsələlərdən biri də Azərbaycanda investisiyaların qorunmasının hüquqi aspektləridir.

Azərbaycanda xarici investisiyaların hüquqi tənzimlənməsi, bütövlükdə, beynəlxalq hüquqi sənədlərdən irəli gəlir. Azərbaycan Respublikası Konstitusiyasında, Azərbaycan Respublikasının qanunlarında, respublika prezidentinin fərmanlarında, Nazirlər Kabinetinin qərarlarında, Azərbaycan Respublikasının digər ölkələrlə ikitərəfli və çoxtərəfli müqavilələrində investisiyaların hüquqi tənzimlənməsi prinsipləri təsbit olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsində mülkiyyət hüququnun toxunulmazlığı və dövlət tərəfindən qorunduğu təsbit edilmişdir. Konstitusiyanın 29-cu maddəsində deyilir ki, məhkəmənin icazəsi olmadan heç kim öz mülkiyyətindən məhrum edilə bilməz, əmlakın tam müsadirəsinə yol verilmir, mülkiyyətin dövlət və ya ictimai ehtiyaclar üçün alınmasına yalnız əvvəlcədən onun dəyərinin ədalətli şəkildə ödənilməsi şərtilə yol verilə bilər. [1, s. 26]. Xarici investorların mülkiyyət hüquqlarının qorunması təminatı, xarici investisiyaların müəyyənləşməsində prinsipial müddəadır.

Azərbaycanda xarici investisiyalar Azərbaycan Respublikasının "Xarici investisiyaların qorunması haqqında" 1992-ci il 15 yanvar tarixli Qanunu İlə tənzimlənir. Bu Qanun, onların həyata keçirilməsinin hüquqi və iqtisadi prinsiplərini müəyyən etməklə, xarici maddi və maliyyə resurslarının, qabaqcıl texnika və texnologiyaların və idarəetmə təcrübəsinin cəlb edilməsinə və xalq təsərrüfatında səmərəli istifadəsinə yönəlmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir. [6, s.18].

Qanunun 2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında xarici investorlar bunlar ola bilər:

- xarici hüquqi şəxslər;
- xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər;
- xarici dövlətlər;
- beynəlxalq təşkilatlar.

"Xarici investisiyaların qorunması haqqında" Qanunun 11-ci bölməsi xarici investisiyalara dövlət təminatlarına həsr olunub. Həmin Qanunun 10-cu maddəsi qanunvericiliyin dəyişməsi ilə bağlı təminatlara həsr olunub və orada qeyd edilir ki, əgər Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya şəraitini pisləşdirirsə, onda 10 il ərzində xarici investisiyalara həmin investisiyaların həyata keçirildiyi anda mövcud olmuş qanunvericilik tətbiq olunur. Həmin maddənin ikinci hissəsi müdafiə, milli təhlükəsizlik və ictimai asayişin, ətraf mühitin qorunmasının təmin edilməsi, vergiqoyma, kreditlər və maliyyə, əhalinin mənəviyyatı və sağlamlığı ilə bağlı dəyişiklikləri onların fəaliyyət sahəsindən istisna edir. Bu, bizcə, "Xarici investisiyaların qorunması haqqında" Qanunun ən böyük və ciddi çatışmazlığıdır. [2, s. 45].

İnvestisiyaların həyata keçirilməsində vergi və maliyyə rejiminin hüquqi tənzimlənməsi investisiya prosesində ən vacib amildir. Bu məsələdə qeyri- müəyyənlik, investorun qərarını mənfi tərəfə dəyişə bilər. Şübhə yoxdur ki, bu Qanun Azərbaycanın müasir iqtisadi reallıqlarına tam cavab vermir və onda zəruri əlavə və dəyişikliklər aparılmalıdır. Əks halda, xarici investisiyaları tənzimləyən yeni qanunvericilik tələb olunur.

1995-ci il yanvarın 13-də "Azərbaycanda investisiya fəaliyyəti haqqında" Qanun qəbul olunmuşdur. Bu Qanun, Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin ümumi, sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirir. Qanun, respublika iqtisadiyyatına xarici investisiyaların intensiv cəlb olunmasına, onlardan ölkənin sosial-iqtisadi bazasının inkişafina və beynəlxalq iqtisadi əməkdaşlığa və inteqrasiya üçün səmərəli istifadə olunmasına yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq, bütün investorların hüquqlarının bərabər müdafiəsini təmin edir. Qanunun 1-ci maddəsində "investisiya" - gəlir əldə etmək məqsədilə sahibkarlıq obyektlərinə və digər fəaliyyət sahələrinə qoyulan həm maliyyə vəsaiti, həm də maddi və intellektual sərvət kimi müəyyən edilir. 17-ci maddədə isə qeyd olunur ki, dövlət, investisiya fəaliyyətinin həyata keçirilməsi üçün şəraitin sabitliyinə, onun subyektlərinin hüquqlarının və qanuni maraqlarının müdafiəsinə təminat verir. 18-ci maddəyə uyğun olaraq, investorlar (o cümlədən, xarici investorlar), investisiyaların idarə edilməsində, onların istifadəsində sərbəstdirlər, onlara mane ola biləcək ayrı-seçkilik xarakterli tədbirlərin tətbiqi istisna olunur. Habelə onlar respublikadan investisiya vəsaitlərinin çıxarılması şərtlərini və qaydalarını nəzərdə tutan bərabər hüquqla təmin olunurlar.

Azərbaycan Respublikasının sonrakı qanunvericiliyinin investisiya şəraitini pisləşdirdiyi təqdirdə, investisiya fəaliyyəti haqqında müqavilənin qüvvədə olduğu müddət ərzində investisiyaların qoyulduğu anda mövcud olmuş qanunvericilik tətbiq edilir.

Xarici iqtisadi əlaqələrin miqyasının genişlənməsi, inteqrasiya proseslərinin güclənməsi, milli iqtisadiyyatların qarşılıqlı asılılığı iqtisadi əlaqələrin tənzimlənməsinə zərurət yaradır. Nəticədə, həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və ədalətli münasibətlərin qurulması üçün şərait yaranır.

Beynəlxalq hüquq-mühafizə münasibətlərinin inkişafı ölkədaxili milli qanunvericiliyin də xeyli təkmilləşməsinə və yeniləşməsinə kömək edir. Çünki, Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilələr, lazımi konstitusiya prosedurları yerinə yetirildikdən sonra respublika qanunvericiliyinin tərkib hissəsi olur və Azərbaycan ərazisində bütün dövlət orqanları, məhkəmələr, hüquqi və fiziki şəxslər tərəfindən tətbiq edilməlidir. [3, s.73].

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinə görə, Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

Azərbaycan bir sıra xarici ölkələrlə kapital qoyuluşlarının (investisiyaların) qarşılıqlı müdafiəsi və həvəsləndirilməsi haqqında sazişlər bağlamış və onları ratifikasiya etmişdir. İnvestisiyaların qarşılıqlı müdafiəsi üzrə sazişlər, bir qayda olaraq, dövlətin öz ərazisində digər dövlətin investorlarının fəaliyyəti ilə bağlı götürdüyü əsas öhdəlikləri əks etdirir. Razılığa gələn tərəflər investorların kapital qoyuluşları və onların fəaliyyətləri ilə bağlı ən əlverişli şərait rejimi yaratmaq, xarici mülkiyyətin lazımi qorunmasını təmin etmək, investora öz gəlirlərini maneəsiz olaraq ölkələrinə köçürmək imkanı yaratmaq barədə öz üzərlərinə öhdəliklər götürürlər.

Azərbaycan Respublikası xarici investorların həvəsləndirilməsi və onların qoyduqları investisiyanın qarşılıqlı qorunması haqqında İngiltərə, Şimali İrlandiya, Gürcüstan, Pakistan, Norveç Krallığı, Almaniya Federativ Respublikası, Özbəkistan, Qazaxıstan, Türkiyə, Qırğızıstanla müqavilələr bağlamışdır. Bu cür müqavilənin köməyi ilə, onu bağlamış dövlətlərin hər biri öz vətəndaşlarının hüquqlarının digər ölkədə reallaşmasını təmin etmək imkanı əldə edir. İstənilən ölkənin müəyyən riskə gedən xarici investoru üçün vacibdir ki, qəbul edən dövlət onu lazımi müdafiə ilə təmin etsin. Yalnız daxili qanunvericilikdə deyil, beynəlxalq sazişdə də bu cür təminatların olmasına qəbul edən dövlətin xarici mülkiyyəti maksimum qorumaq istəyi kimi baxılır. Müqavilə tənzimlənməsinin yaranması, müqavilə üzrə gələcək partnyorun (ölkənin) qanunvericiliyindəki dəyişikliklərdən asılı olmayaraq, investisiyalar üçün sazişdə nəzərdə tutulmuş rejimin tətbiqinə təminat verir. [4, s.86].

Benəlxalq iqtisadi əlaqələrin həyata keçirilməsi prosesində çoxtərəfli beynəlxalq müqavilələr də mühüm rol oynayır. Belə müqavilələrdən biri də 1985-ci ildə bağlanılmış "İnvestisiya təminatları üzrə Çoxtərəfli Agentliyin təsis edilməsi haqqında" (MİQA) Seul Konvensiyasıdır. Milli səviyyədə dövlət və özəl sığorta sistemi Seul Konvensiyasının köməyi ilə xarici investisiyaların çoxtərəfli beynəlxalq sığorta sistemi ilə tamamlanır. Azərbaycan MİQA-nm tamhüquqlu üzvüdür. Dünya Bankının sığorta şəbəkəsinin üzvü kimi MİQA ekspropriasiyanın, müharibənin, vətəndaş iğtişaşlarının və kontraktın pozulması səbəblərindən baş verən investisiya itkilərinin ödənilməsini təmin edir. MİQA 50 milyon ABŞ dollarından artıq olan investisiyaların həcminin 90%-ni sığorta edir.

Milli qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq müqavilələrdə iştirak, Azərbaycan Respublikasının milli-dövlət maraqlarının normativ aktlarda təsbiti, inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsi və yuxarıda qeyd edilən hüquqi aspektlərin nəzərə alınması kiçik və orta biznesin hərtərəfli inkişafına və tərəqqisinə səbəb olacaq, ölkəmizə dünya dövlətləri birliyində layiqli yer tutmağa imkan verəcəkdir.

02 sentyabr 2002-ci il tarixdə "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən imzalanmış Fərman sahibkarlığın və kiçik biznesin inkişafına və hüquqi təminatına zəmin yaradır. Fərmanda qeyd olunur ki, "...Ölkədə 240 - dan çox fəaliyyət növünün xüsusi icazə əsasında fəaliyyəti və lisenziyanın qısa müddətə verilməsi, faktiki olaraq, sahibkarlığın inkişafına, iqtisadiyyata investisiya qoyuluşu prosesinə mənfi təsir etmiş, sağlam rəqabət mühitinin formalaşması və istehlakçıların hüquqlarının qorunması sahəsində dövlət siyasətinin gerçəkləşdirilməsi yolunda inzibati-bürokratik əngələ çevrilmişdir. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması göstərilən nöqsanların qısa müddətdə aradan qaldırılmasını, ilk növbədə, xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayının kəskin surətdə azaldılmasını, lisenziya müddətinin uzadılmasının, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu işdə şəffaflığı təmin edən qaydaların tətbiqini zəruri edir. [5, s.47].

Məhz buna görə Fərmanla "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı" təsdiq edilmişdir ki, burada əvvəlki siyahıdan fərqli olaraq 240 yox, cəmi 30 fəaliyyət növü saxlanmışdır. Eyni Fərmanla "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Oaydalar" da təsdiq olunmuşdur. Fərmanın və bu Fərmanla təsdiq olunmuş Qaydaların və Siyahının kiçik biznes və sahibkarlıq üçün müstəsna əhəmiyyət kəsb etdiyini sübut etməyə lüzum yoxdur. Təkcə onu qeyd etmək istərdik ki, bu tədbirlər və rəsmi sənədlər, ölkə Prezidentinin yerli və xarici sahibkarlarla görüşlərinin nəticəsi olaraq yaranmışdır və bizim seçdiyimiz mövzunun aktuallığını və həyatiliyini bir daha təsdiq edirlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
2. N.N.Məmmədova. Kiçik sahibkarlığın Azərbaycan iqtisadiyyatında rolu. Bakı, 2019.
3. Azərbaycan Respublikasının Regionlarının 2019-2023-illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı. Bakı, 2019.
4. Bayramov M. Kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı rolu. Beynəlxalq təcrübə və Azərbaycan. Bakı, 2016.
5. N.O.Hacıyev.Azərbaycanda kiçik müəssisələrin təşəkkülü və inkişafı. Bakı, 2000.
6. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992, 15 dekabr № 405.

***Юсиф Ягуб оглы Ахмедов***
***магистр***
***Электронная почта: Юсифа 808@gmail.com,***
***Лала Расим кызы Меджидова***
***старший преподаватель***
***Азербайджанский Университет Коперации***
***Электронная почта: m.lala19@mail.ru***

**Законодательная база и правовые аспекты организации малого бизнеса**

***Резюме***

В статье одним из основных факторов, способствующих развитию малого бизнеса, является наличие законодательной базы и ее правовая защита. Кроме того, анализируются интернационализация экономической жизни, тенденции эффективного использования международного разделения труда необходимость создания благоприятных правовых условий для привлечения иностранного капитала в экономику Азербайджана.

***Ключевые слова: малый бизнес, правовая база малого бизнеса, правовые аспекты малого бизнеса, иностранные инвестиции, международное разделение труда.***

***Yusif Yagub Ahmadov***
***Graduate student***
***Email: Yusifa 808@gmail.com,***
***Lala Rasim Majidova***
***head teacher Azerbaijan Cooperation University***
***Email: m.lala19@mail.ru***

**Legislative framework and legal aspects of organizing a small business**

***Summary***

In the article, one of the main factors contributing to the development of small business is the existence of the legislative framework and its legal protection. In addition, internationalization of economic life, trends of effective use of international division of labor, requirement to create favorable legal conditions for attracting foreign capital to the economy of Azerbaijan are analyzed.

***Key words: small business, legal framework of small business, legal aspects of small business, foreign investment, international division of labor.***